***"Azərbaycan Prezidenti İlham Əliyev nadir dünya liderlərindəndir ki, ölkə başçısı kimi xalqının qarşısında verdiyi bütün vədləri icra edib, götürdüyü bütün öhdəlikləri ləyaqətlə yerinə yetirib. O, dövlət başçısı seçildiyi gündən işğal altında olan torpaqlarımızın azad olunacağını əminliklə bəyan edirdi. Cənab Prezident bu yolda davamlı mübarizə apardı, bütün təzyiqlərə, çətinliklərə baxmayaraq, vədini sədaqətlə yerinə yetirdi". Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Ağdam şəhərinin baş bərpa layihəsinin dövlət başçısının iştirakilə rayonda təqdimat mərasimi ilə bağlı mediaya açıqlamasının davamında deyib:***

# Qarabağ Zəfərinin və Böyük Qayıdışın əsasında Azərbaycan dövlətinin gücü, xalqımızın hünəri dayanır

– Dövlət başçısı Qarabağ işğaldan azad edildikdən sonra həmin ərazilərin yenidən qurulacağını, bərpa ediləcəyini də öz xalqına söz vermişdi. Mayın 28-də Ağdam rayonuna Prezidentin səfəri bir daha göstərdi ki, artıq işğaldan azad olunan ərazilərdə abadlıq işləri sürətlə gedir. Bu yerdə bir məsələni də qeyd etmək istəyirəm. Koronavirus pandemiyası bütün dünyanı iflic etdi. Elə bir ölkə yoxdur ki, bu bəla ilə üz-üzə qalmasın və onun fəsadları bütün sahələri əhatə etdi. Azərbaycan isə pandemiya ilə uğurlu şəkildə mübarizə aparan lider ölkələrdəndir.

Belə çətin vəziyyətdə düşmənin yeni hərbi təxribatı ilə üzləşdik. Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə dövlətimizin təhlükəsizliyi naminə əks-hücum əməliyyatlarına başladıq və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etdik. Ardınca dərhal 30 il işğal altında olan ərazilərdə quruculuq işlərinə başladıq. Qeyd olunan məsələlərin hər birini təhlil etsək, görərik ki, bütün bunları həyata keçirmək qüdrətli dövlət, möhkəm hakimiyyət, güclü iqtisadiyyat, sarsılmaz birlik və güclü lider sayəsində mümkün olur. Biz belə bir möhtəşəm tarixi yaşayırıq və xalqımızın hər bir nümayəndəsi qüdrətli dövlətimizlə qürur duyur və özünü xoşbəxt sayır.

Prezidentin Ağdam şəhərinə səfərində bir daha şahid olduq ki, bütün işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa–quruculuq işləri düşünülmüş şəkildə, təsdiqlənmiş baş plana uyğun olaraq, öncədən sakinlərlə məsləhətləşdirilmiş və təsdiqlənmiş qaydada aparılır. Bu da ölkə başçısının sistemli, məqsədyönlü işinin və xalqının etimadına hörmətinin əlamətidir. Ağdamın baş planı ilə tanışlıq göstərdi ki, şəhərin infrastrukturu tamamilə bərpa olunacaq. İlk olaraq, 140 illik tarixi olan müasir tələblərə uyğun tikiləcək 1 saylı məktəbin təməlinin qoyulması dövlət başçısının ölkə həyatında təhsili, elmi, biliyi xüsusi və önəmli sahə kimi qiymətləndirməsidir. Çünki bütün uğurların kökündə dövrün tələblərinə uyğun təhsil almış peşəkar gənclər durur, bu da ölkəmizdə prioritet istiqamət təşkil edir.

İşğaldan azad edilmiş ərazilərə qayıdacaq sakinlərin sosial vəziyyəti də ən vacib məqamlardan biridir. Bunun üçün yaşayış evləri ilə yanaşı, iş yerlərinin də olması əsas şərtdir. Bunu nəzərə alaraq Ağdam Sənaye Parkının tikintisi və böyük bir sahəni– 200 hektara yaxın ərazini əhatə etməsi orada yüzlərlə, gələcəkdə, bəlkə də, minlərlə insanın işlə təmin ediləcəyindən xəbər verir. Yaxın gələcəkdə istifadəyə veriləcək Bərdə–Ağdam avtomobil yolu, həmçinin Bərdə–Ağdam dəmir yolunun tikintisinin nəzərdə tutulması insanların rahat gediş-gəlişinə şərait yaradacaq və rayonun sosial-iqtisadi inkişafına xidmət edəcək.

Ağdam şəhərində Qarabağ xanları ailəsinə məxsus "İmarət" kompleksinin bərpası, İşğal və Zəfər muzeylərinin yaradılması, şəhərin daxilində 125 hektarlıq böyük meşə zolağının salınması, həmçinin nəzərdə tutulan süni göl, çəkiləcək kanallar, tikiləcək körpülər sakinlərlə yanaşı, bura üz tutacaq turistlərin də ruhunu oxşayacaq. Bütün bunlar işğala məruz qalmayan qonşu rayonların da inkişafı üçün ərverişli olacaq və bütöv bölgəni əhatə edəcək.

Qeyd olunan bütün layihələrin "ağıllı şəhər" konsepsiyası əsasında baş tutacağını söyləyən AHİK sədri daha sonra bildirib:



– Prezident İlham Əliyevin Ağdam rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə dediyi kimi, biz işğalçıların viran qoyduğu bu əraziləri cənnətə çeviririk. Quruculuq işlərinə düşməni ərazilərdən qovduqdan dərhal sonra başladıq və bu proses sürətlə davam etdirilir. Şuşa, Füzuli, Cəbrayıl və digər şəhərlərin də baş planları üzərində fəal iş gedir. Yaxın gələcəkdə, həqiqətən də, biz xarabalıqdan cənnətə çevrilmiş bir diyar görəcəyik, oraya qayıdacaq sakinlər əbədi və xoşbəxt yaşayacaqlar. Bütün bunlar – Azərbaycan Prezidentinin yaratdığı təminatlar əsasında gerçəkləşdirilən bu layihələr bütün dünyaya xalqımızın sülhsevərliyini və yurdsevərliyini, ölkəmizin isə xoş məramını və qüdrətini nümayiş etdirir.

Azərbaycanın qazandığı hərbi qələbənin və başladığı irimiqyaslı bərpa–quruculuq işlərinin, atılan uğurlu addımların təməlində güclü və müstəqil dövlət, onun rəhbərinin siyasi iradəsi, peşəkarlığı, əzmkarlığı, torpağına, Vətəninə, xalqına olan sevgisi dayanır. Biz məhz bu təməllər üzərində bugünkü güclü Azərbaycana nail olmuşuq, dövlətimiz artıq regionun lideridir. Ermənistanın işğal siyasəti isə onu bataqlığa saldı, onların dövlətçilik ənənələri olmadığı üçün bu illər ərzində sərbəst fəaliyyət göstərə, müstəqil qərar verə bilmədilər.

Bütün bunların nəticəsi olaraq erməni rəhbərlər hər addımda böyük dövlətlərdən yalvararaq kömək istəyirlər. Hətta onların öz sərhədlərini qorumaq cəsarətləri belə yoxdur. Ölkədə ciddi hakimiyyət böhranı yaşanır. Hakimiyyətin qolları arasında rabitə itib, yüksək vəzifəli məmurlar biri-birinə əks bəyanatlar verirlər. Bütün bu mənzərə böyük gülüşə səbəb olan teatrı xatırladır".

AHİK sədri, deputat Səttar Möhbalıyev son günlər Ermənistanla sərhəddə baş verən erməni təxribatına layiqli cavab verildiyini də qeyd edib: "Görünən odur ki, Ermənistan tərəfi təxribatçı əməllərindən əl çəkmir. Sərhəddə gərginlik yaratmağa çalışır. Prezident İlham Əliyev mayın 10-da Naxçıvanda, mayın 28-də isə Ağdamda səfərdə olarkən xalqımızın, dövlətimizin təhlükəsizliyinə Ermənistan tərəfindən zərrə qədər təhlükə olarsa dərhal cavab veriləcəyini bəyan etdi. İstər Naxçıvan istiqamətində, istərsə də Kəlbəcərdə onların cavabı layiqli şəkildə verildi. Düşmən Azərbaycan Ordusunun gücünə bələddir. Azərbaycan Prezidentinin xəbərdarlıq etdiyi kimi, dəmir yumruq daim başlarının üstündədir ".

***Hazırladı: T.AYDINOĞLU, "Xalq qəzeti"***